**Mirzə M.** Arzusu Şuşanı azad etmək idi // Respublika. - 2024. - 7 sentyabr. - **№ 194**. - S. 10.

**Vətən müharibəsi şəhidi Nicat Həsən oğlu Əhmədov 1998-ci il sentyabrın 22-də Bakı şəhərində anadan olub. Ailəsi əslən Şuşadandır, ancaq 1991-ci ilədək Xankəndi şəhərində yaşayıblar. Həmin il erməni separatçıları Xankəndidən azərbaycanlı əhalini didərgin salarkən ailə Ağdama pənah gətirib. 1993-cü ildə düşmən Ağdamı da zəbt edir, Əhmədovlar ailəsi oradan da köçkün düşür... Nicat paytaxtın Nizami rayonundakı 62 və Y.Kovalyov adına 229 nömrəli orta məktəblərdə təhsil alıb. 2016-cı ildə yüksək balla Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin dövlət və ictimai münasibətlər ixtisasına qəbul olunub.**

Universiteti bitirdikdən sonra 2020-ci ilin iyulunda hərbi xidmətə yollanan Nicat əsgərlikdə rabitə bölüyündə qulluq edib. Sentyabrın 22-də doğum gününü ailəsi ilə birlikdə hərbi hissədə qeyd edir. Beş gün sonra Vətən müharibəsi başlayır. Nicat da bu müqəddəs döyüşlərə qoşulur...

Bacısı Lalə Əhmədova deyir: "Hər zəngində mənə görə narahat olmayın, mən yaxşıyam, siz özünüzə yaxşı baxın" deyirdi. Hər gün evə zəng edirdi. Son zəngi oktyabrın 6-sı olub. Axşam saat 9-a qalmış evə zəng edib, hamı ilə danışıb. Yenə hər şeyin yaxşı olduğunu deyib. O zəng Nicatın sonuncu zəngi olub. Nicat mərd oğlan idi. Ailəmizin kiçiyi olmasına baxmayaraq, həmişə özünü böyük kimi aparırdı. Evdə hamımızın köməyinə çatardı. Hara əlimizi atsaq, Nicat deyə çağırardıq. Ona görə də bu gün onun yoxluğu çox hiss olunur. Bəzən hər şey yuxu kimi gəlir, onun yoxluğuna inana bilmirik. Çox çətindir insanın canından can getməsi... Hərdən bizə sual verilir ki, şəhid ailəsi olmaq və ya şəhid anası, atası, bacısı olmaq necə hissdir? Mən o suala ümumi belə cavab vermək istəyirəm. Şəhid ailəsi olmaq bir yandan acı çəkərkən, digər yandan qürur hissi keçirməkdir. Şəhidlik uca bir zirvədir. Nicat bizim qəlbimizdə daim yaşayacaq. Biz əslən şuşalı olduğumuz üçün Nicatın ən böyük arzusu Şuşanı azad etmək idi: "Atama deyirdi ki, Şuşanı azad edəndən sonra sizinlə oradan əlaqə saxlayacağam... ".

Nicat oktyabrın 8-i səhər saatlarında Füzuli istiqamətindəki döyüşlərdə şücaət göstərərək əbədiyyətə qovuşub.

Bu gün bütün şəhidlərimiz kimi, Nicatın da ruhu şaddır. Özünə qismət olmasa da, onun kimi igid oğullarımızın şücaəti sayəsində Şuşa şəhəri noyabrın 8-də düşməndən azad edildi. Şanlı üçrəngli bayrağımız bu gün qürurla Şuşada dalğalanır.

Nicat Əhmədov 2020-ci il oktyabrın 9-da paytaxtın Keşlə qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Azərbaycan Prezidentinin Sərəncamına əsasən, Nicat Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.